# Prezident İlham ƏLİYEV:

# Zəngəzur dəhlizinin açılması bölgə ölkələri üçün yeni fürsət olacaq



***Prezident, Ali Baş Komandan İlham Əliyev avqustun 14-də qardaş Türkiyənin nüfuzlu telekanallarından olan "CNN Türk"ə geniş müsahibəsində Qarabağla bağlı bir sıra məqamlar, eləcə də Zəngəzur dəhlizinin açılması məsələsi ətrafında fikirlərini bildirdi. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycanın Ermənistanla sülh müqaviləsi imzalamağa maraqlı olduğunu, bunun üçün təkliflər hazırlandığını diqqətə çatdırdı. Ölkə rəhbəri dedi: "Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yeni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq".***

Ölkə rəhbəri müsahibəsində Zəngəzur dəhlizinin açılmasının bir çox məqsədlərə, hədəflərə xidmət göstərdiyini xüsusi vurğulayıb. Qeyd edib ki, bu dəhlizin reallaşması nəticəsində Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Düzdür, dörd il bundan əvvəl paytaxtımızda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılış mərasimi keçirilib. Bunun sayəsində qardaş ölkə ilə əlaqələr genişlənib. Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq: "Beləliklə, bizim üçün yeni fürsətlər ortaya çıxacaq... Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də dəmir yolu ilə birləşəcək. Eyni zamanda, biz tələb edirik ki, avtomobil yolu da çəkilsin – Ermənistanın nəzarəti altında olan Qərbi Zəngəzur ərazisində, Mehri bölgəsində. Çünki bu da mütləq lazımdır...".

Prezident İlham Əliyev daha sonra Zəngəzur dəhlizinin təkcə Azərbaycan üçün deyil, həm də bölgə ölkələri üçün də yeni fürsət olacağını, Türkiyənin öz mallarını Orta Asiyaya bu qısa, alternativ yolla daşıya biləcəyini vurğulayıb, Ermənistanın Rusiya və İranla dəmir yolu ilə bağlantısının yaranacağını diqqətə çatdırıb: "Çünki Ermənistan-İran dəmir yolunun inşası bəlkə də 20 il müzakirə edilən bir məsələdir. Amma hələ ki, ortalıqda bir şey yoxdur. Çünki bu layihə təqribən ən azı 3 milyard dollar tələb edir. Ancaq Naxçıvan ərazisindən, – Naxçıvan ilə İran arasında artıq dəmir yolu xətti var, – istifadə edə bilərlər".

Zəngəzur dəhlizinin açılması ilə bağlı bir məqama da toxunmaq istərdik. Belə ki, ötən il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində məğlubiyyətə uğrayan işğalçı ölkə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanata əsasən üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi, şərtlərə uyğun olaraq, bir güllə belə atılmadan, heç bir itki verilmədən işğal edilən ərazimizin qalan hissəsi – əvvəlcə Ağdam şəhəri və rayonun işğal altında qalan kəndləri, növbəti mərhələdə isə Kəlbəcər və Laçın rayonları rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Üçtərəfli bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi bildirildi. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutuldu. Bu il fevralın 14-də isə Prezident İlham Əliyevin Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyması ilə həmin layihənin icrasına başlanıldı. Azərbaycan və Türkiyə respublikalarının prezidentləri iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanma mərasimindən sonra mətbuata birgə bəyanatlarla çıxış edərkən dövlətimizin başçısı məlum üçtərəfli bəyanatı xatırladaraq, dedi: "Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır".

Ümumiyyətlə, Zəngəzur dəhlizi layihəsi təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat imkanlarının açılması deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə xidmət göstərəcək.

Yuxarıda qeyd edildiyi kimi, Zəngəzur dəhlizi layihəsinə xüsusi önəm verilməsi Azərbaycan və Türkiyə üçün böyük əhəmiyyət daşıyır. Təkcə bu il ixrac həcmini 15-20 faiz artırmağı planlaşdıran qardaş ölkə ticarət dövriyyəsi 6 milyard dollara çatan Mərkəzi Asiya və 21 milyard dollar olan Çinlə iqtisadi əlaqələrdə Zəngəzur dəhlizindən istifadə edəcək. Zəngəzur dəhlizi, hətta Türkiyə-Rusiya iqtisadi əlaqələrinin də güclənməsini şərtləndirəcək.

Onu da deyək ki, Azərbaycanın hazırda region dövlətlərindən biri olaraq, istər Çin, istərsə də İranla müxtəlif sahələri əhatə edən geniş əməkdaşlıq əlaqələri var. Hər iki dövlətlə nəqliyyat-tranzit, ticarət, sənaye, turizm sahələrində əməkdaşlıq respublikamız üçün prioritet siyasi xətdir. Prezident İlham Əliyevin qlobal xarakter daşıyan siyasi və iqtisadi məsələlərə diqqətlə yanaşmasının nəticəsidir ki, ölkəmiz bir tərəfdən Çinin təklif etdiyi "Bir kəmər, bir yol" layihəsinə qoşulmaqla Asiya ilə Avropa arasındakı iqtisadi əlaqələrdə dayaq məntəqəsinə, digər tərəfdən də İranın da iştirak etdiyi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə qoşularaq logistika mərkəzinə çevrilir.

Burada mühüm bir məqam da odur ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ermənistanın işğalında qalan ərazilərini azad etməklə Naxçıvan Muxtar Respublikası ilə respublikamızın əsas ərazisini birləşdirən dəmir və avtomobil yollarını təzliklə bərpa edərək, istifadəyə verəcək. Bu yollar Çinə Orta Asiya-Azərbaycan-Türkiyə-Avropa tranzit-nəqliyyat xəttindən istifadə etmək imkanı yaradacaq.

Bu məsələdə İran ilə Çin arasındakı əməkdaşlıq rəsmi Bakı üçün də faydalı sayıla bilər. Çünki İran Çinin sərmayəsindən yararlanmaqla tranzit nəqliyyat xətlərini inşa edərək yekunlaşdırmaq imkanına malikdir. Məsələn, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas seqmenti sayılan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti tamamlana bilər. Yolun Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Lakin Rəşt-Astara yolu hələlik hazır deyil. İqtisadi sanksiyalar İrana bu yolun inşasını başa çatdırmağa mane olur.

Cənub–Şərqi Asiya ölkələrindən İranın Çabahar və Bəndər-Abbas limanlarına daxil olan yüklər Avropaya və əks istiqamətə məhz bu yolla daşınacaq. Yüklər Cənub-Şərqi Asiyanın ən böyük yükaşırma imkanı olan Mubaidən İranın Bəndər-Abbas limanına, buradan isə Qəzvir-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu ilə Azərbaycan və Rusiya ərazisindən keçməklə Qərbi Avropaya çatdırılacaq. Azərbaycan infrastruktur layihələri həyata keçirərək buna tam hazır vəziyyətdədir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi təkcə büdcəyə valyuta axınını təmin etməyəcək, dövlətimiz həm də siyasi zəmanət qazanacaq.

Göründüyü kimi, dünyanın ikinci böyük iqtisadiyyatına malik olan Çin ilə regionun fəal dövləti olan İran arasında strateji əməkdaşlıq Azərbaycan üçün də faydalıdır. Prezident İlham Əliyevin Azərbaycanı qlobal iqtisadi layihələrə cəlb etməsinin səmərəli nəticəsi özünü göstərir.

Bir sözlə, ərazilərimizin işğaldan azad edilməsi nəticəsində yaranmış yeni siyasi reallığa uyğun olaraq, Azərbaycanın əsas hissəsini və Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizi regionun tranzit-logistika potensialını genişləndirəcək. Bu potensialın reallaşdırılması yeni nəqliyyat marşrutlarının fəaliyyətə başlamasına gətirib çıxaracaq, iqtisadi gücümüzü daha da artırmaqla yanaşı, regional əməkdaşlığı və sabitliyi möhkəmləndirəcək.

Ermənistanın dəmiryollarına nəzarət edən Rusiyanın Cənubi Qafqaz Dəmiryolu Şirkəti də Zəngəzur dəhlizinə kommersiya baxımından maraqlıdır. Ermənistandan İrana 3,5 milyard ABŞ dollarına başa gələcək bahalı dəmiryol xəttinin çəkilməsində marağı olmayan rəsmi Tehran üçün də Zəngəzur dəhlizi yeni nəqliyyat imkanları açdığına görə iqtisadi baxımdan faydalıdır.

Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq. Dəhliz, həmçinin Azərbaycan və İran Culfası arasında dəmiryol xəttinin açılışına və İranın dəmir yollarına çıxış əldə etməyə imkan verəcək. Bununla bərabər, Zəngəzur dəhlizi təkcə dəmir yolları deyil, həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin yaradılması həm də avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq.

Hazırda Türkiyədən yüklər Azərbaycana Gürcüstan və İran vasitəsilə tranzit yolu ilə çatdırılır. Bu maşrutun yaradılması Türkiyədən Azərbaycana və əks istiqamətdə malların birbaşa tədarükünü asanlaşdıracaq. Beləliklə, daha bir kommunikasiya xətti türk dünyası coğrafiyasında, eləcə də Asiya və Avropa arasında əlaqələrin daha sürətli və asan olmasına şərait yaradacaq.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizinn təşəbbüsü ilə reallaşdırılan Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Bütün bunlar deməyə əsas verir ki, Zəngəzur dəhlizinin gerçəkləşməsi və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşuruta çevriləcək.

Bu gün Ermənistanın revanşist qüvvələri Zəngəzur dəhlizinin reallaşması əleyhinə çıxış edirlər. Halbuki onlar bu layihənin qeyd edilən üstünlüklərindən yararlanarlarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərlərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilərlər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafını gerçəkləşdirmək imkanları əldə edərlər.

Əks halda, təcavüzkar siyasətindən əl çəkməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan oxşar iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***